# "Azərbaycan Parisin Cənubi Qafqazdakı təxribatlarının qarşısını alıb"

## Bəhruz Məhərrəmov: "Fransa istər siyasi, istər diplomatik aspektdən məğlub edilərək regiondan qovulub"

**"Fransanın dənizaşırı ərazilər nazirinin Yeni Kaledoniyaya səfəri çərçivəsində Azərbaycanı ittiham etməsi bir daha göstərməkdədir ki, Paris özünün neoimperialist siyasətindən əl çəkmək niyyətində deyil. Fransa Azərbaycanın timsalında digər subyektlərə ittihamlar yağdırmaqla, əslində, öz cinayətlərindən diqqəti yayındırmağa çalışır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Avropada, Cənub-Şərqi Asiyada, Mərkəzi və Cənubi Amerikada, xüsusən Afrikada dövlət səviyyəsində Fransanın törətdiyi çoxsaylı sülh və insanlıq əleyhinə cinayətlər fonunda fransalı nazirin Azərbaycanı bu ölkənin dənizaşırı ərazilərə münasibətdə daxili işlərinə qarışmaqda ittiham etməsi, həmçinin cəmi 50 il əvvələ qədər çoxsaylı qırğınlar, o cümlədən Əlcəzair və digər Afrika dövlətlərində törədilən soyqırımları fonunda Bakını etnik təmizləmədə günahlandırması, sadəcə, gülüş doğurur və nazirin ya öz ölkəsinin tarixindən bixəbər olduğunu, ya da mahiyyətcə riyakar olmasını deməyə əsas verir. Aydındır ki, Azərbaycan Vətən müharibəsi və antiterror tədbirləri ilə öz güc və imkanları hesabına regionda elə geosiyasi reallıq formalaşdırıb ki, nə Ermənistan, nə də onun havadarı qismində çıxış edən hər hansı üçüncü subyekt bu konfiqurasiyanı dəyişə və poza bilər. Sirr deyil ki, bu günə qədər Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqların dəyişdirilməsi və Qərbin arzuladığı formatın qurulması üçün, xüsusən Fransanın "təşəbbüskarlığ"ı ilə çoxsaylı səylər göstərilib, hətta Azərbaycanın "məsələsi" BMT Təhlükəsizlik Şurasının iclasına çıxarılıb. Lakin cənab İlham Əliyevin liderliyində ölkəmiz bütün bu təcavüzkar mahiyyət daşıyan cəhdləri neytrallaşdırıb, əksinə, Azərbaycana hücum edən beynəlxalq subyektlər özü bu regionda bütün maraqlarından məhrum edilib. "Qeyd etdiyimiz kimi, bu prosesdə Fransanın xüsusi aktivliyi olduğu üçün regionda qeyri-adekvat davranışları fonunda ən çox mövqelərini itirən və sözün əsl mənasında, geosiyasi zərərə məruz qalan tərəf də məhz özüdür. Ötən dövr ərzində Azərbaycana münasibətdə çoxsaylı böhtan və qarayaxma kampaniyasının əsl təşkilatçılarından biri kimi çıxış edən Fransa nəinki bu niyyətlərinə nail ola bilməyib, hətta cənab İlham Əliyevin rəhbərliyi altında atılan qətiyyətli addımlarla Cənubi Qafqazdakı ötən 30 il ərzində formalaşdırdığı və maraqlarının ehtiva olunduğu mövqelərini tam şəkildə itirib. Bundan başqa, Prezident İlham Əliyevin liderliyində, xüsusən Qoşulmama Hərəkatının sədri qismində intensivləşən adekvat və qətiyyətli addımlarla Fransanın çoxsaylı cinayətlərdə ehtiva olunan neokolonialist siyasəti ifşa edilib, o cümlədən ötən ilin dekabr ayında Cənubi Qafqazdan Yaxın Şərqə, Şərqi Avropadan Orta Asiyaya qədər uzanan xüsusi xidmət şəbəkəsi ifşa edilərək Paris bölgədə bütün güc və təsir imkanlarından məhrum edilib. Görünən odur ki, özünə çox arxayın formada hücumlara start vermiş Makron diktaturası gözləmədiyi mənzərə qarşısında aciz qalaraq bu kimi ucuz, qeyri-adekvat və beynəlxalq hüquqa zidd gedişlərlə revanş niyyətlər güdməkdədir. Amma reallıq tamamilə başqa situasiyanı diktə edir və Fransanın daxili işlər və dənizaşırı ərazilər naziri də daxil olmaqla, fransız rəsmilər ən yaxşı halda Azərbaycana böhtanlar dolu bəyanatlar səsləndirmək, yaxud təxribatçı formada Ermənistanla şərti sərhədlərimizdən binokla baxmaqla kifayətlənməli olurlar", - deyə siyasətçi əlavə edib.

Deputat qeyd edib ki, fransalı nazirin Azərbaycanı yenidən etnik təmizləmədə günahlandırması, həmçinin dənizaşırı ərazilərə müdaxilədə ittiham etməsinə gəlincə, görünən odur ki, Fransa daxilində müşahidə olunan böhranlar fonunda Paris Cənubi Qafqazdakı mövqelərinin daha da zəifləyəcəyini dərk etdiyi üçün günah keçisi axtarmaq, eyni zamanda regionda itirdiyi mövqelərə haqq qazandırmaq niyyətindədir. Təbii ki, Fransanın bu kimi təxribatçı bəyanatlar yolu ilə Azərbaycanın yaratdığı geosiyasi reallığı hər hansı formada dəyişdirməsi, vəziyyəti Parisin lehinə çevirməsi mümkünsüzdür. Çünki Azərbaycan Liderinin Qoşulmama Hərəkatının sədri qismində, hazırda isə qlobalmiqyaslı lider kimi qəti mövqeyinə qədər BMT özü başda olmaqla, heç bir beynəlxalq təşkilat, ümumilikdə beynəlxalq hüququn heç bir subyekti Fransanın çoxsaylı cinayətlərinə qarşı real, effektiv, təsirli addım atmırdı. Bunun da çox sadə səbəbi var idi, çünki müasir neoimperializm, neokolonializm, islamofobiya və müsəlmanlara qarşı təqib meyilləri elə üzdə olan qlobal subyektlərin, xüsusən Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Belə olan halda, təbii ki, beynəlxalq təşkilatların idarəçiliyində yer alan bu cür subyektlərin mövcud situasiya ilə mübarizəsi səmimi ola bilməz. Bu mənada, qlobal miqyasda bu qorxunc və qəbuledilməz tendesiya ilə ilk səmərəli mübarizə təşəbbüsü məhz Azərbaycan Prezidenti tərəfindən reallaşdırılıb. Cənab İlham Əliyev 2022-ci ilin 1 noyabr tarixində Qoşulmama Hərəkatının sədri qismində Fəxri qonaq statusunda Əlcəzair Xalq Demokratik Respublikasında Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimində məhz qeyd edilən beynəlxalq subyektləri, əlalxüsus Fransanı ifşa edib.

B.Məhərrəmov vurğulayıb ki, məhz bu prosesdən sonra Fransa rəsmiləri Parisin Yeni Kaledoniyada törətdiyi vəhşiliklərə haqq qazandıraraq, toqquşmalara görə məsuliyyəti xarici qüvvələr, o cümlədən Azərbaycanın üzərinə atmağa cəhd göstərməkdə, xüsusən ölkəmizi separatizmə dəstək verməkdə təqsirləndirməyə başlayıblar: " Əlbəttə, biz bu böhtanları rədd edirik və təxribatçı nazirə xatırlatmaq istəyirik ki, Azərbaycan XX və XXI əsrlərdə separatizmə qarşı ən effektiv mübarizə ortaya qoymuş, Cənubi Qafqazda artıq möhkəmlənmiş və Fransanın dəstəyi ilə 30 il mövcudiyyətini qorumuş separatizm ocağının kökünü qazımış dövlətdir. Fransa uzun müddət Cənubi Qafqazda separatizmə dəstək verib, o cümlədən Qarabağda 2023-cü ilə qədər separatçıların həyata keçirdiyi bir çox cinayətlərin altında məhz bu dövlətin qanlı imzası var. 9 dekabr 1948-ci il Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyaya əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupun üzvlərinin qismən və ya qismən məhv etmək məqsədilə öldürülməsi, bədən xəsarəti və ya ruhi zərər vurma, tamamilə və ya qismən fiziki məhv edilməsi üçün nəzərdə tutulmuş bu cür yaşayış şəraitinin hər hansı bir qrupu üçün qəsdən yaradılması soyqırımı hesab edilir. Bu gün Fransanın kanaklara qarşı siyasəti məhz qeyd olunan cinayətlərdə ehtiva olunur və onun təcavüzkar mahiyyətini ortaya qoyur. Fransanın Yeni Kaledoniyada həyata keçirdiyi irticaçı tədbirlər, Fransa zülmü əleyhinə baş verən iğtişaşlara cavab olaraq adaya fransız ordusunun yeridilməsi, kütləvi qətllər, xeyli sayda yaralının olması, qanunsuz həbslər, qeyri-adekvat komendant saatı, həmçinin Fransa təhlükəsizlik qüvvələrinin yerli kanak xalqına qarşı onların məhz fransız olmadıqları üçün həyata keçirdiyi zorakılıqla müşahidə olunan təqib birmənalı şəkildə soyqırımıdır. Amma təəssüflər olsun ki, BMT başda olmaqla, bir sıra təşkilatlar, o cümlədən insan haqlarının müdafiəsi istiqamətində formalaşdırılmış, əslində isə, kollektiv Qərbin təzyiq aləti kimi istifadə etdiyi təsisatlar hələ də susur. Lakin Prezident İlham Əliyev əvvəlcə Qoşulmama Hərəkatının rəhbəri kimi, hazırda isə müasir dövrün yeni reallıq yaradıcılarından biri kimi bu prosesin önündədir və hər kəs anlamalıdır ki, Azərbaycan hər bir dövlətin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmaqla bərabər, həm də ümumbəşəri dəyərlərin qorunması istiqamətində öz səylərini bundan sonra da davam etdirəcək".

Siyasətçi bildirib ki, indiki məqamda, bu, çox vacibdir, çünki Fransa hökuməti bir qayda olaraq öz cinayətlərini - Korsikada, dənizaşırı ərazilərdə, Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək üçün ciddi informasiya blokadası tətbiq etməklə vəziyyəti daha da ağırlaşdırır. Adada xüsusilə populyar olan və etirazçıların əsas silahına çevrilmiş "TikTok" sosial şəbəkəsinə çıxış bloklanıb, habelə digər vəhşilik və qırğınların gizli qalması üçün komendant saatının şərti kimi heç bir lüzum olmadan bütövlükdə internetin kəsilməsinə artıq hazırlıq gedir. Lakin məlumdur ki, BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin ildə bir dəfə təşkil edilən regional tədbirində hazırda iştirak edən Yeni Kaledoniyanın BMT-dəki nümayəndəsi törədilən qırğınlar barədə üzv ölkələri məlumatlandıraraq Fransanı ifşa edib. "Ümumiyyətlə, Fransa hökuməti artıq uzun illərdir ki, Korsikadan dənizaşırı ərazilərinə qədər bütün müstəmləkələrində istilanı əbədiləşdirmək üçün cinayətkarcasına məcburi assimilyasiya tədbirləri həyata keçirir. Xüsusən kanakların tam assimilə olunaraq sıradan çıxması üçün kənardan adaya minlərlə miqrant qanunsuz yolla yerləşdirilərək həm yerli sakinlər sıxışdırılır, həm də miqrantlara səs hüququ verilərək işğalı davam etdirmək üçün Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq bu ölkənin seçki qanunvericiliyini dəyişmək planının icrasına başlanılıb. Fransa hökuməti miqrantlara səs hüququ verməklə, əslində, müstəqillik tərəfdarı olan kanakların səsini və milli kimliyini boğmağı hədəfləyir. Bir sözlə, Paris Yeni Kaledoniyada Fransanın demokratik yolla deyil, zor gücünə üstünlük verdiyini və bu ölkənin demokratiya, insan haqları adına bəyanatlarının yalnız və yalnız göstəriş xarakteri daşıdığını göstərir. Makron rejimi bu davranışları ilə qlobal dünyada bəşəri dəyərlər adına təhdid yaratmaqdadır. Bu gün ümumbəşəri dəyərlərə sadiq olan, həmin dəyərlərə hörmətlə yanaşan bütün beynəlxalq subyektlər Fransanı dayandırmağa qlobal vəzifə kimi baxmalıdırlar".

Deputat qeyd edib ki, uzun dövr ərzində Fransanın müstəmləkə siyasətinə, törətdiyi çoxsaylı qırğınlara dur deyən, bu cinayət əməllərinə layiqli qiymət verən olmayıb. Yalnız Qoşulmama Hərəkatının rəhbəri qismində Prezident İlham Əliyev Ərəb Dövlətləri Liqasının konfransında ilk dəfə olaraq Fransanın müstəmləkə cinayətlərini ifşa edərək, bu ölkəni üzr istəməyə və aidiyyəti şəkildə törətdiyi əməllərin nəticələrinin aradan qaldırılması istiqamətində fəaliyyətə çağırıb. Fransa isə bu reallıqları qəbul etməkdənsə, yenidən radikallaşaraq istər öz müstəmləkələrində, istərsə də yeni maraq dairəsinə daxil olmuş Cənubi Qafqaz kimi regionlarda davamlı şəkildə təxribat fəaliyyətlərini intensivləşdirib. Təbii ki, Azərbaycanda milli iradə və milli maraqları ehtiva edən siyasi kurs bu prosesdə səssiz qalmayıb, Parisin Cənubi Qafqazdakı təxribatlarının qarşısını alıb. Fransa istər siyasi, istər diplomatik aspektdən məğlub edilərək regiondan qovulub, habelə casus şəbəkəsi ifşa edilərək gələcək təxribat imkanları minumuma endirilib. Bu gün fransız rəsmilərini, o cümlədən bu ölkənin nazirini sərsəm bəyanatlar verməyə məcbur edən də məhz bu siyasi iflasdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 6 mart (№50).- S.8.